**“Mənim kitabxanam” layihəsi çərçivəsində keçirilən məktəblilər arasında “Ən sevdiyim kitab” adlı onlayn müsabiqənin**

# ƏSASNAMƏSİ

**Bakı – 2024**

## 1. Ümumi müddəalar:

Bu əsasnamə Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi (bundan sonra Təşkilat Komitəsi) tərəfindən keçiriləcək “Mənim kitabxanam” layihəsi çərçivəsində məktəblilər arasında “Ən sevdiyim kitab” adlı onlayn müsabiqənin (bundan sonra müsabiqə) keçirilməsi şərtlərini, qaliblərin seçilməsi və mükafatlandırılması qaydalarını müəyyən edir.

## 2. Müsabiqənin məqsədi:

Uşaqlar arasında mütaliə bacarıqlarının inkişaf etdirilməsi, kitablara sevginin aşılanması, uşaqların təhsilində valideyn məsuliyyətinin artırılması.

## 3. Müsabiqənin iştirakçıları:

Müsabiqədə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin tabeliyində fəaliyyət göstərən Uşaq və Ailələrə Dəstək Mərkəzlərinin (bundan sonra UADM) fəaliyyət göstərdiyi rayonlarda (Bakı şəhərinin Xəzər rayonu, Saatlı, Sabirabad, Hacıqabul, Zərdab, Qəbələ, İsmayıllı, Göygöl, Goranboy, Ağdam, Zaqatala) yaşayan və təhsil alan 1-11-ci sinif şagirdləri iştirak edə bilərlər.

## 4. Müsabiqəyə təqdim edilən videoların mövzusu:

Azərbaycan və dünya ədəbiyyatı, şəxsi inkişaf və motivasiya üzrə kitablar.

## 5. Müsabiqədə iştirak qaydası və tələblər:

- Müsabiqə iştirakçıları özləri haqqında məlumatları (adı, soyadı, atasının adı, oxuduğu məktəb və sinif, videoda haqqında danışdığı kitabın müəllifi və adı) və videoları 08-16 aprel 2024-cü il tarixlərində regionmerkez@gmail.com elektron poçt ünvanına göndərməlidirlər.
- Video göndərilərkən elektron poçt ünvanının mövzu hissəsində “Ən sevdiyim kitab” başlığı yazılmalıdır.
- Videolar 1-4 dəqiqəlik olmalıdır.
- Videoda iştirakçı əvvəlcə özünü təqdim edəcək; adı, soyadı, yaşadığı rayon, təhsil aldığı məktəb və oxuduğu sinfi qeyd edəcək. Sonra oxuduğu və ən sevdiyi bir kitab

haqqında məlumat verərək, həmin kitabın əhəmiyyətini və başqa şəxslərə oxumaq üçün tövsiyə etməsinin səbəbini izah edəcək.

- Hər bir iştirakçı yalnız bir video göndərə bilər. Videolar telefon və ya videokamera vasitəsilə çəkilə bilər.
- Videolar Azərbaycan dilində olmalıdır.

***Qeyd:*** *Videonu çəkərkən telefonu vertikal (portrait) yox, horizontal (landscape) tutmaq lazımdır. Əks halda videoya normal ekranda baxıldığı zaman onun sağ və sol tərəfində qara zolaqlar olacaq.*

*Təqdim olunan videolar tələblərə cavab verməyəcəyi halda Təşkilat Komitəsi tərəfindən müsabiqəyə qəbul edilməyəcəkdir.*

## 6. Qiymətləndirmə forması:

Müsabiqəyə təqdim edilən videoların qəbulu dayandırıldıqdan sonra 30 aprel 2024-cü il tarixinədək müvafiq UADM-lərin “facebook” sosial şəbəkəsində *#mənimkitabxanam* etiketi ilə *(*həştəq) yerləşdiriləcək.

İzləyicilər tərəfindən hər rayon üzrə ən çox bəyənilən (bəyənilmə sayına görə) 5 nəfər qalib seçiləcək.

## 7. Müsabiqənin yekunu və mükafatlandırma qaydaları:

- Qaliblərin müəyyənləşdirilməsi və elan edilməsi 13 may 2024-cü il tarixinə qədər UADM-lərin “facebook” sosial şəbəkəsi vasitəsi ilə həyata keçiriləcək.

- Müsabiqədə qalib gəlmiş iştirakçıların evlərində 1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Gününə qədər mükafat olaraq kitab rəfi, yazı masası, yazı masası üçün stul, kitablar və dəftərxana ləvazimatlarından ibarət “Oxu guşəsi” yaradılacaqdır.

**Əlavə məlumat üçün Təşkilat Komitəsi ilə əlaqə saxlaya bilərsiniz.**

***Ünvan:*** *Bakı şəhəri, Ü.Hacıbəyli küçəsi 80, Hökumət Evi, 4-cü qapı,*
*Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi*
***Telefon****: (+99412) 493-79-62, (+99451) 230-54-87.*